# MOK-da "Həmrəy olaq, qanımızla yaşadaq" adlı qanvermə aksiyası təşkil edilib















Beynəlxalq ictimaiyyət hər il iyunun 14-nü Dünya Qan Donoru Günü kimi qeyd edir. Həmin gün qan və qan məhsullarının keyfiyyətini, təhlükəsizliyini və ehtiyacı olan xəstələr üçün əlçatanlığını təmin etmək və onların həyatını xilas etmək üçün insanlar könüllü və təmənnasız olaraq qan verirlər.

Dünya Qan Donoru Günü ərəfəsində Milli Olimpiya Komitəsinin (MOK) dəstəyi, Səhiyyə Nazirliyi Respublika Qan Bankının və Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzinin birgə təşkilatçılığı ilə MOK-da kütləvi qanvermə aksiyası təşkil olunub.

Talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən insanların qanla təminatına yardım məqsədilə keçirilən "Həmrəy olaq, qanımızla yaşadaq" adlı qanvermə aksiyasında Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Zemfira Meftaxetdinova, Fərid Mansurov, baş katib Azər Əliyev, MOK-un digər əməkdaşları, Olimpiya, dünya və Avropa çempionları və mükafatçıları, habelə idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Çingiz Hüseynzadə qonaqları salamlayaraq, tədbirin əhəmiyyətindən danışıb: "Bildiyiniz kimi, iyunun 14-ü bütün dünyada qan donorları günüdür. Bundan başqa tarixdə ilk dəfə Azərbaycanda keçirilən I Avropa Oyunlarının 10 ili tamam olur. Təşkil edilən kütləvi qanvermə aksiyasında ölkənin tanınmış idmançıları, Olimpiya mükafatçılarımız iştirak edirlər. Onların arasında Avropa Oyunlarının qalib və mükafatçıları da yer alıb. Bu, böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, bu aksiya bizim övladlarımızın sağlamlığına xidmət edən xeyirxah bir addımdır. Bilirsiniz ki, ölkəmizin sağlam vətəndaşları arasında idmançıların da xüsusi rolu var. İdmanın özü də sağlam həyat tərzinin təbliğinə xidmət edir. Əminəm ki, bu gün idmançılarımızın verdikləri qan nümunələri neçə-neçə uşaq və yeniyetməyə həyat bəxş edəcək. Təklif edərdim ki, ölkəmizdə keçirilən bu cür aksiyalara idmançılarımız da dəvət olunsunlar. Bu, təbliğat işinə müsbət təsir göstərə bilər".

Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzi idarə heyətinin sədri Fuad Rəsul isə çıxışında belə bir tədbirin təşkili üçün Milli Olimpiya Komitəsinin rəhbərliyinə öz minnətdarlığını bildirib. Qeyd edib ki, bu aksiyaya ölkənin ən güclü və tanınmış idmançılarının qoşulması təqdirəlayiq haldır.

Sonra Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının xüsusi tibbi briqadasının həkim-hematoloqları donorların sağlamlıq vəziyyətini müəyyən edərək onlardan qan götürüblər.

*Rizvan CƏFƏROV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-13 iyun (№120).- S.12.